# Prezident İlham Əliyevin obrazı təsviri sənətdə



ƏRTEGİN SALAMZADƏ

AMEA-nın müxbir üzvü, professor

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsviri sənətdə müxtəlif portretləri vardır. Həmin portretlər həm Azərbaycan, həm də xarici ölkə rəssamları tərəfindən yaradılmışdır. Bu portretlərdə İlham Əliyevin nəcib insani keyfiyyətləri, humanizmi ilə bərabər, onun xarakterinin çevik, işgüzar, qətiyyətli dövlət başçısına xas olan xüsusiyyətləri də dolğun əks olunur. Tanınmış Azərbaycan rəssamlarından Arif Hüseynovun, Cavid İsmayılovun, İlham Mirzəyevin, Həbibə Allahverdiyevanın, populyar rus boyakarı Nikas Safronovun və başqalarının yaratdıqları rəsm əsərlərində bu xüsusiyyətlər öz əksini tapır.

Rəssamların, o cümlədən xarici rəssamların Azərbaycan Prezidentinin obrazına maraq göstərmələri təsadüfi deyil. Bu, bir tərəfdən, İlham Əliyevin ümumxalq məhəbbəti qazanmasının bədii ifadə vasitəsidirsə, digər tərəfdən, Azərbaycan liderinin dünya miqyasında qazandığı populyarlığın, diqqəti cəlb etmək məharətinin göstəricisidir. İlham Əliyevin uğurlu xarici siyasəti, xüsusən iriмiqyaslı iqtisadi layihələr, investisiya qoyuluşu, milli mədəniyyətin təbliği sahəsindəki fəaliyyəti Azərbaycanı bütün dünyada tanıtmışdır. Bunun əks-sədası olaraq həmin uğurlu siyasətin, ardıcıl, dayanıqlı siyasi dəst-xəttin müəllifi kimi onun öz şəxsiyyətinə də maraq artmışdır.

Təsviri sənətdə İlham Əliyevin obrazı əsasən üç mövzuda gerçəkləşdirilir ki, bunlara da tək portretlər, ailə üzvləri ilə olan portretlər (buraya Heydər Əliyevlə olan əsərlər də daxildir) və xalq içərisində olan təsvirlər daxildir. Kompozisiya və süjet quruluşu, rəng həlli, ideya-bədii xüsusiyyətlərinə görə bu əsərlər xeyli fərqli xarakterə malikdir. Lakin onların hamısının ana xəttini Prezidentin şəxsiyyətinə dərin hörmət, ehtiram, eyni zamanda, yaradıcı təxəyyüldən qaynaqlanan maraq, sənətkarlıq həvəsi təşkil edir.

Azərbaycan təsviri sənətində İlham Əliyevin surətini yaradan rəssamlardan biri də qocaman sənətkar, Xalq rəssamı, professor Arif Hüseynovdur. "Bir millət, iki dövlət" adlanan bu əsərdə İlham Əliyev ümummilli lider Heydər Əliyevlə birlikdə təsvir edilmişdir. Qrafika texnikasında işlənmiş bu mürəkkəb, çoxsaylı ayrıntıların, detal və yazıların yer aldığı ağ-qara kompozisiyada ulu öndər Heydər Əliyevin oğlu və davamçısı İlham Əliyevlə üz-üzə dayanaraq söhbət etməsi, ona sanki tövsiyələr verməsi əks olunub. Heydər Əliyevin İlham Əliyevlə üz-üzə dayanaraq söhbət etməsi məşhur fotodur və rəssamlar həmin fotoya dəfələrlə müraciət etmişlər. Lakin hər bir rəssam həmin məlum kompozisiyaya yeni ştrixlər, detallar, bədii formalar daxil etmiş, bununla da onu zənginləşdirmiş və bədii baxımdan fərdiləşdirmişdir. Müxtəlif tablolarda ulu öndərlə İlham Əliyev müxtəlif formalarda – Azərbaycan bayrağının, Bakı mənzərəsinin, Naxçıvandakı əzəmətli İlan dağının fonunda əks etdirilib. Arif Hüseynovun sözü gedən qrafik tablosunda məşhur fotonun fərqli bədii interpretasiyasının şahidi oluruq. Rəssam üz-üzə durmuş hər iki şəxsiyyəti, həmçinin kompozisiyanın fonunu sanki çərçivəyə salmış, lakin əsəri genişləndirərək "çərçivə"dən kənarda davam etdirmişdir [şəkil 1].

Kompozisiyanın ağ-qara olmasına baxmayaraq o, əslində, rəngarəng təsir bağışlayır. İki dahi şəxsiyyətin işıqlı simaları, müxtəlif bədii elementlər əsəri olduqca rəngarəng göstərir. Kompozisiyanın mərkəzində, iki şəxsiyyətin arasında, ön planda rəssam Xəzər dənizini, onun qoynundakı üzən neft qurğularını əks etdirmişdir. Onların arxasında qədim və müasir Bakının möhtəşəm memarlıq simvolları – Qız qalası, Şirvanşahlar sarayı, məşhur "Alov qüllələri" diqqəti cəlb edir. Daha sonra






*Şəkil 1. Arif Hüseynov. Bir millət, iki dövlət*

müəllif əzəmətli dağları, onların arxasından boylanaraq Azərbaycan torpağını salamlayan günəşi təsvir edir. Kənarlarda isə o, digər tarixi-memarlıq abidələrini, misal üçün, Naxçıvandakı Möminə xatın türbəsini əks etdirir. Maraqlıdır ki, rəssam Heydər Əliyevin arxasında Moskvanın mərkəzində, Qızıl meydanda yerləşən məşhur Vasili Blajennı kilsəsini, həmçinin (ayrıca detal kimi) Kremlin Spassk qülləsini, onun yanındakı küknar ağaclarını və s-ni təsvir etmişdir ki, bu da ulu öndərin həyatının Moskva dövrünə işarədir. Kompozisiyanın kənar hissələri maraqlı, lokal ayrıntılarla zəngindir. Burada diqqəti cəlb edən əsas məqam tablonun yuxarı hissəsində Azərbaycan və Türkiyənin qoşa dalğalanan bayraqlarıdır. Sol yuxarı kənarda Azərbaycan şahinlərinin – qırıcı təyyarələrin nizamlı uçuşu əks olunub. Aşağı hissədə isə möhtəşəm izdiham - minlərlə insanın əllərini qaldıraraq "Heydər-xalq, xalq Heydər!" deyə ucadan səslənmələri təcəssüm etdirilib. Ümumiyyətlə, A.Hüseynovun sözü gedən kompozisiyasının maraqlı xüsusiyyətlərindən biri də burada müxtəlif yazıların olmasıdır. Başqa bir mühüm cəhət isə yazıların iki dildə - Azərbaycan və ingilis dillərində verilməsidir. Misal üçün, kompozisiyanın üst hissəsində, yuxarıda haqqında danışdığımız Azərbaycan və Türkiyə bayraqlarının yanında "Bir millət, iki dövlət" sözləri Azərbaycan və ingilis dillərində yazılıb. Eləcə də ulu öndərə məxsus "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" ifadəsi iki dildə təkrarlanır.

Əməkdar rəssam Cavid İsmayılovun "Müstəqillik yollarında" adlı tablosu istər kompozisiya və rəng, istərsə də ideya-bədii mahiyyət baxımından zəngin tematikaya malikdir. Mərkəzdə üç möhtəşəm fiqurun – Heydər Əliyevin, İlham Əliyevin və Vasif Talıbovun surətlərinin təsvir olunduğu kompozisiyanın digər elementləri, demək olar ki, başdan-başa rəmzlərdən ibarətdir. Kompozisiyanın mərkəzi hissəsini göylərə yüksələn üçrəngli Azərbaycan bayrağı tutur. Bayraq tədricən kompozisiyanın alt tərəfində təsvir edilən gül-çiçəkli düzənliyə qovuşur. Bundan bir qədər yuxarıda isə Cavid İsmayılov qədim Naxçıvan torpağının əyilməzlik, yenilməzlik, qüdrət nişanələri olan Haçadağ, Nəhəcir və Əlincə zirvələrini təsvir etmişdir. Bu zirvələrdən hər biri kompozisiyanın əsasını təşkil edən üç fiqura müvafiq gəlir, hərəsi birinin şəxsiyyətini, qüdrətini təcəssüm etdirir [şəkil 2].

Əsərdəki digər rəmzi elementlər də maraq doğurur. Azərbaycan bayrağının bir tərəfində dünyanın böyük dövlətlərinin – ABŞ, Böyük Britaniya və başqalarının, həmçinin BMT, Beynəlxalq Olimpiya Təşkilatı kimi nüfuzlu qurumların bayraqları dalğalanır. Əks tərəfdə isə Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan kimi türkdilli ölkələrin bayraqları yer alır. Rəssam bununla ulu öndərin və onun layiqli davamçısının – ölkə başçısı İlham Əliyevin uğurlu xarici siyasətini, həm



*Şəkil 2. Cavid İsmayılov. Müstəqillik yollarında*

dünya birliyində, həm də qardaş türkdilli ölkələr içərisində böyük nüfuz sahibi olduğunu göstərmək istəmişdir. Tablonun sağ və sol künclərində həm tarixi, həm də müasir memarlıq abidələri əks olunub. Sol tərəfdə Bakı memarlığı nümunələri – Qız qalası, Hökumət evi, müasir tikililər, sağ tərəfdə isə Naxçıvan abidələri – Möminə xatın, Yusif ibn-Küseyr türbələri, yeni binalar nəzərə çarpır. Gəmiqayadakı piktoqrafik işarələr, Nuhun gəmisi və s. diqqəti cəlb edir. Müxtəlif rəng tonlarının istifadə edildiyi, detallarla zəngin olan bu tablo həm də rəngarəngliyi ilə yadda qalır.

Qeyd etmək lazımdır ki, C.İsmayılov ulu öndər Heydər Əliyevin və ölkə başçısı İlham Əliyevin müxtəlif obrazlarının müəllifidir. Rəssamın yaratdığı İlham Əliyevin portreti əsəri, zənnimizcə, xüsusi dəyərə malikdir. Yığma kompozisiya xarakterli, rəmzi əhəmiyyət kəsb edən bu tablonun mərkəzində Azərbaycan Prezidentinin məğrur, mətin və inamlı addımlarla Yer kürəsi üzərində ön plana doğru irəliləməsi əks olunub. Onun göy kostyumu, əzəmətli görünüşü, tamaşaçıya yönəlmiş, özünəinam hissi ifadə edən sakit, təmkinli baxışları realist səpkidə təsvir edilib. Arxada isə çoxminli insan kütləsi onu sanki müşayiət edir. Daha arxada isə Azadlıq meydanı, meydanboyu qüdrətli ordumuzun şütüyən hərb maşınları görünür. Rəssam arxa planda kompozisiyanı maraqlı detallarla zənginləşdirmiş, buraya ulu öndər Heydər Əliyevin, üçrəngli Azərbaycan bayrağının, Heydər Əliyev mərkəzinin, məşhur “Alov qüllələri” kompleksinin, Naxçıvandakı İlan dağının görüntülərini daxil etmişdir [şəkil 3].

İlham Əliyevin klassik rəssamlıq ənənələrinə istinad edən olduqca maraqlı, ekspressiv əhvali-ruhiyyəli, yüksək bədii sənətkarlıqla işlənmiş portretlərindən birini Əməkdar rəssam İlham Mirzəyev yaratmışdır. Əsərdə cənab Prezidentin əzmkarlıq, ardıcıllıq, güc ifadə edən qətiyyətli baxışları olduqca canlı, həyati, inandırıcı ştrixlərlə əks olunmuşdur. Portretdə rəssam obrazı tünd neytral fonda təsvir edib. Arxa planda dalğalanan üçrəngli Azərbaycan bayrağı kompozisiyanın möhtəşəmliyini daha da artırır. Şəkilə tamaşa etdikcə,



*Şəkil 3. Cavid İsmayılov. Prezident İlham Əliyev*





*Şəkil 4. İlham Mirzəyev.*
*Prezident İlham Əliyevin portreti*

istər-istəməz qulaqlarımızda sanki cənab Prezidentin qələbəyə dərin inam ifadə edən, hər bir azərbaycanlının qəlbindən xəbər verən ümid dolu nikbin sözləri səslənir: “Azərbaycan bayrağı işğal olunmuş hər bir şəhərimizdə dalğalanmalıdır və dalğalanacaqdır!”. Portretdə təsvir edilmiş obrazın qətiyyətli görünüşü bu fikrin tezliklə reallaşacağına yenilməz inam oyadır [şəkil 4].

Əməkdar rəssam Həbibə Allahverdiyeva sənətdə İlham Əliyev mövzusuna müraciət edən istedadlı fırça ustalarındandır. Doğma Naxçıvan torpağının gözəllikləri, tarixi-memarlıq abidələri, portretlər onun yaradıcılığında mühüm yer tutur. Bu sırada Atatürkün, Heydər Əliyevin, Hüseyn Cavidin, Bəhruz Kəngərlinin, digər böyük şəxsiyyətlərin portretləri qeyd edilməlidir. Şübhəsiz ki, bu əsərlərin arasında İlham Əliyevin bədii obrazının xüsusi payı vardır.

Əsər olduqca maraqlı kompozisiya həllinə malikdir. Bunu “şəkil içində şəkil” adlandırmaq olar. Portretdə İlham Əliyev iri planda təsvir edilib. Əgər İlham Mirzəyevin tablosuna qətiyyət və güc ifadə edən sürəkli ekspressiya ruhu hakimdirsə, Həbibə Allahverdiyevanın yaratdığı portretə səmimi duyğular, incə lirika, sakit əhvali-ruhiyyə xasdır. Prezidentin səmimi təbəssüm ifadə edən baxışları tamaşaçıya dikilmişdir. Onun arxasında, sol tərəfdə Xəzər dənizi, uzaqdan Bakı buxtasının bir hissəsi görünür. Şəklin kənarında Azərbaycan bayrağı diqqəti cəlb edir. Sağ tərəfdə isə müəllif Heydər Əliyev və Zərifə xanım Əliyevanın divardan asılmış iriölçülü qoşa portretini işləmişdir. Bu portret Naxçıvanı təsvir edir. Belə ki, onların arxasında bu qədim azəri yurdunun rəmzlərindən olan Möminə xatın məqbərəsi görünür. Kompozisiya elə qurulmuşdur ki, aralarındakı böyük məsafəyə baxmayaraq, onlar sanki bir yerdədirlər. Rəssam məcazi surətdə İlham Əliyevi sanki valideynləri ilə eyni məkanda, eyni aurada təcəssüm etdirib. Həyatdan köçmələrinə baxmayaraq, valideynləri sanki bu gün də cənab Prezidentə dəstək olur, onu ruhən pərvazlandırır, dövlətçiliyə, xalqa, vətənə sonsuz inam və sevgi hissləri aşılayırlar [şəkil 5].



*Şəkil 5. Həbibə Allahverdiyeva.*
*Prezident İlham Əliyevin portreti*

İlham Əliyevin xarici rəssamlar tərəfindən işlənmiş portretlərindən danışarkən, ilk növbədə, Rusiyanın Əməkdar rəssamı, Azərbaycanın dostu Nikas Safronov yada düşür. İlk dəfə 1997-ci ildə Azərbaycana gələn rəssam bu gözəl diyarın məf-



*Şəkil 6. 7. Nikas Safronov. İlham Əliyevin portretləri*

tunu oldu. Rəssamın Azərbaycanın, o cümlədən Naxçıvanın gözəl təbiət mənzərələrini ulu öndər Heydər Əliyev yüksək qiymətləndirirdi. Nikas Safronov Bakıda olarkən ulu öndərin, həmçinin Azərbaycanın tanınmış şəxsiyyətlərinin obrazlarını yaratmışdır. Bu sırada cənab İlham Əliyevin portretləri xüsusilə böyük maraq doğurur. Bakı şəhəri mənzərəsi, Azərbaycanın xəritəsi və bayrağı fonunda təsvir edilmiş bu portretlər təbii görünüşü, səmimiyyəti, rusiyalı rəssamın üslubuna xas olan aydın, realist dəst-xətti ilə seçilir [şək. 6, 7].

Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif rəssamlar tərəfindən işlənmiş bir çox maraqlı bədii portretləri vardır. Bu kiçik yazıda onların hamısını əhatə etmək, təbii ki, mümkün deyil. Lakin bu maraqlı mövzu davam etdirilməlidir. Güman etmək olar ki, sözügedən mövzu sənətşünasların diqqətini cəlb edəcək, bu sahədə gələcək araşdırmalara yol açacaqdır.

**Ədəbiyyat**


1. Heydər Əliyevin Azərbaycan MEA rəhbərliyi və aparıcı alimləri ilə görüşündə nitqi // "Azərbaycan" qəzeti, 5 fevral 1997-ci il.

2. Гейдар Алиев – всегда впереди эпохи (под общей ред. Г.Ч.Оруджева). Баку, «Апострофф», 2014, 176 с.

3. İlham Əliyev: Biz hər şeyə nail olacağıq. Bakı, "Oskar" NPM, 2003, 268 s.

4. İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir. Bakı, 2015.

5. Ильхам Алиев: Я верю в мой Азербайджан (сост. М.Озеров). Москва, «Бослен», 2007, 352 с.